**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MƏHƏMMƏD HÜSEYN oğlu ƏKBƏROV**

# PLATONUN FƏLSƏFƏSİNDƏ QANUN İDEYASI

İxtisas: 7210.01-Fəlsəfə tarixi

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2018**

Dissertasiya işi Xəzər Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərman Qəhrəman oğlu İsmayılov**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Arzu Əşrəf qızı Hacıyeva**
*fəlsəfə üzrə elmlər doktoru*

**Afaq Sultan qızı Məmmədova**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universiteti**

Müdafiə «__» aprel 2018-ci ildə saat «___» Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 01.115 Dissertasiya Şurasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az-1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat « ___ » «_________» 2018 - ci ildə göndərilmişdir.

**Fəlsəfə İnstitutunun nəzdindəki**
**D.01.115 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **S.A.Həsənova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Hər bir xalq özünün tarixi inkişaf prosesində işləyib hazırladığı qanunlar, sosial normalar, rituallar, müxtəlif inanclarda ifadə olunan adət-ənənələr yaradır, bununla da özünün həyata və dünyaya münasibətini, həyat və düşüncə tərzini, prinsiplərini, başqa sözlə, öz mövcudluğunun kodeksini hazırlamış olur. Qanunların sosial normalarla bağlı olmasına inam bütün xalqlara xasdır. Ümumiyyətlə, qanunlar bütün xalqlarda ədalət naminə yaradılmışdır. İnsanlar inanmışlar ki, ədalətin idealı göylərə məxsusdur. Yer kürəsində isə bu ideal o zaman əldə edilə bilər ki, əlaqə və münasibətə girənlər özlərinin hərəkət, rəftar, təfəkkür və nitqini, fəaliyyətlərini qeyd-şərtsiz şəkildə qanunlarla uzlaşdırsınlar. Antik dövr yunan filosofu Platon da bəşəri münasibətlərdə arzu olunan kamilliyə yüksəlmək üçün mükəmməl qanunların hazırlanmasına və onların ideal dərəcədə dəqiq, düzgün tətbiq edilməsinə nail olmağa çalışırdı. Platon öz dövründə və ölkəsində buna nail olmasa da bilavasitə onun ideyaları sonralar bu və ya digər formada dəyişdirilmiş, yerli şəraitə uyğunlaşdırılmış şəkildə dünya xalqları tərəfindən istifadə edilmiş və edilməkdədir.

Qanunlar və onların tarixən formalaşmasına təsir göstərən amillər həmişə sosial və siyasi fənlərin diqqət mərkəzində olmuşdur. Bu baxımdan, qanunların tarixinin öyrənilməsi, Platonun əsərlərində qanun və qanunçuluq ideyalarının tədqiqi, onun ümumi irsinə olan maraq, bu günə qədər aktual olaraq qalır. Ətrafında xeyli sayda bir-birinə zidd olan polemikaların mövcudluğuna baxmayaraq, bu məsələlərin təhlilinə hələ də maraq azalmamışdır.

2012-ci ilin sentyabrında Rusiya Dövlət Humanitar Universiteti tərəfindən keçirilən “Avropa mədəniyyətində Platon və platonizm” adlı üçgünlük beynəlxalq konfrans Platon irsini bir daha sərf-nəzər etdi və filosofun əsərlərinin tərcüməsi məsələsinə yenidən qayıdaraq onun əsərlərində qanunçuluq ideyalarının geniş şərhinə dair müzakirələr apardı. Bu forum, Rusiyada çoxdan gözlənilən Platon irsinə bir qayıdış olmaqla bərabər, həm də XX əsrin 60-70 ci illərindən bəri “Fəlsəfi irs” adı altında qədim yunanca Platondan rus dilinə edilmiş tərcümələrdən sonra Platon irsinə yeni yanaşmalar da təklif etdi.

Platonun əsərlərinin xronoloji ardıcıllığı onun fəlsəfi fəaliyyətində mühüm yer tutan üç səyahəti ilə bağlı olmuşdur. Onun əsərlərinin hamısının yalnız onun özünə məxsus olmasının reallığı ideyası antik dövrdə olduğu kimi, bu günlərdə də platonçular tərəfindən müzakirə mövzusudur. Bu üç mərhələdə Platon yaradıcılığının tədqiqinin intensiv aparılması təsadüfi

olmamışdır; belə ki, hələ sağlığında Platonu istəməyən sələfləri müxtəlif bəhanələrlə onun bir sıra əsərlərinin özünə deyil, digər şəxslərə aid olması barədə mülahizələr söyləmişlər.

XIX əsrin əvvəllərindən başlayaraq sanki Platona yenidən dönüş olmuş, onun əsərlərinin mahiyyəti, dil və stilistikası ilə bağlı xeyli təhlillər aparılmış, Platon qanunları araşdırılmış və aktuallıq nəzərə alınaraq bu tendensiya bu günlərdə də davam etdirilir.

Platonun araşdırıcıları onun digər dialoqları ilə müqayisədə "Qanunlar"ın daha mükəmməl olduğunu qeyd edirlər. Platonun fəlsəfəsi və qanunlarına dair həm Azərbaycanda, həm də digər ölkələrdə tədqiqat əsərləri mövcuddur. Bununla belə, qanun ideyasının fəlsəfi və tarixi nöqteyi-nəzərdən yenidən və daha dərindən tədqiq edilməsinə ehtiyac vardır.

Bütün bunlar deməyə əsas verir ki, araşdırılan mövzu Platonun fəlsəfəsi qədər həmişəyaşar və aktual olmuş və indi də belə qalmaqdadır. Bunu isə aşağıdakı müddəalarla əsaslandırmaq olar: bu Platonun özünün bütövlükdə fəlsəfi və sosial-siyasi irsinə olan maraqla bağlıdır; bu Platonun ideal dövlət və ideal qanunlar yaratmaq istəyi və onlara dair müasir, şərhlərin və təhlillərin çoxluğu ilə bağlıdır; belə böyük maraq və diqqətin olması Platon qanunlarının modernizə və rekonstruksiya olunması cəhdləri və yeni qanunçuluq və yeni dövlət konsepsiyalarının meydana gəlməsi ilə bağlıdır; dünya miqyasında qanunların qeyri-mükəmməlliyi ucbatından insanların iztirablarının artması mövcud qanunların mükəmməlləşdirilməsi tələbini aktuallaşdırır ki, bu da Platonun bu sahədəki ideyalarına müraciət edilməsini, onlardan istifadəni zərurətə çevirir. Ona görə də Platonun ideyalarının öyrənilməsi və onlardan rasional şəkildə istifadə edilməsinə həmişə ehtiyac vardır.

Bütün bunlar həm Platonun əsərlərində qanun və qanunçuluq ideyalarına, həm də onun irsinə olan ümumi marağın hələ də yüksək olaraq qalmasını şərtləndirir.

**Problemin işlənmə dərəcəsi.** Bir çox müasirlərindən fərqli olaraq, Platon əsərlərinin bütöv külliyyatı bizim zəmanəmizə qədər gəlib çatmışdır. Bu üstunlük həmin əsərlər haqqında bəşər alimlərini ildən-ilə daha çox yeni sözlər və iddialar söyləməyə sövq edir[1].

---

[1] Kahn C. Review of Morrow. Plato's Cretan City, Journal of the History of Ideas, 1961, 22 (3), pp. 418–424; Saunders T. The Alleged DoubleVersion in the Sixth Book of Plato's Laws. Classical Quarterly, 1970, 20 (2), pp.230–236; Taran L. Academica – Plato. Philip of Opus and the Pseudo-Platonic Epinomis. Philadelphia PA: American Philosophical Society; George Klosko: The Nocturnal Council in

Platon sisteminin araşdırmaçılarının əsərlərinin mükəmməl analizini aparmaq əsla mümkün olmayan bir məsələdir. Bunu həyatını fəlsəfə tarixinə həsr etmiş ən görkəmli filosoflar etiraf etmişlər. Məşhur fəlsəfə tarixçisi V. Vindelband xüsusilə qeyd edirdi ki, Platon və onun yaradıcılığı haqqındakı əsərlərin tam siyahısını tərtib etmək əsla mümkün deyildir. V.Vindelband Platonu "qəhrəman", "ən mükəmməl yunan və böyük insan" adlandırırdı. O, Platonun siyasi fəlsəfəsinə "sosial etika" kimi baxırdı, bəzi hallarda isə qeyd edirdi ki, onun siyasət təlimi etikası ilə sintez edilmişdir.[1]

Platon haqqında Aristotel, Diogen Laerti (e.ə. III əsr) və b. antik müəlliflər yazmışlar. Bizim eranın III-VI əsrlərində Platonun əsərlərinin tədqiqi və sistemləşdirilməsi ilə məşğul olan xüsusi bir fəlsəfi cərəyan – neoplatonizm fəaliyyət göstərmişdir. Bu cərəyanın banisi Plotin idi. Elə həmin fəlsəfənin tərəfdarlarının ideyaları ərəb-müsəlman fəlsəfəsinə, o cümlədən Kindi, Fərabi, İbn Sina, İbn Rüşd və başqalarına güclü təsir etmişdir.[2] İntibah dövrü Platonun fəlsəfəsinə xüsusi diqqət yetirmişdir. 1553-cü ildə ilk dəfə onun əsərlərinin külliyatı nəşr edilmişdir. Yeni dövrdə Avropa ölkələrində xüsusilə Almaniyada Platona daha çox maraq göstərilmişdir. Lakin XIX əsrin əvvəlindən başlayaraq Platon yaradıcılığına, o cümlədən onun siyasi fəlsəfəsinə xüsusi diqqət göstərilmişdir. Almanlar, ingilislər, fransızlar, ruslar və b. xalqların nümayəndələri bu dövrdən başlayaraq Platon fəlsəfəsinə doğru ciddi bir dönüş etmişdir.

XIX əsrin əvvəllərindən Avropa fəlsəfəsində Platonun siyasi fəlsəfəsi, o cümlədən onun dövlət, hüquq, qanun və qanunçuluq haqqındakı baxışlarına xüsusi maraq hiss olunur. İngilis alimlərindən C.Dillon, V.Politis, A.Smitt, D.Moran, F.O'Rouke, C.Keari, D.H.P.Larsen, T.Kroul, V.Desmond və başqaları Platonun siyasi fəlsəfəsini, hüquq konsepsiyasını, o cümlədən qanuna dair ideyalarını dərindən araşdırmağa diqqət yetirmişlər.

---

Plato's Laws, Political Studies, 1988, 36 (1), 74–88; Annas, J. and Waterfield, R.: (eds and trans.).Plato: Statesman. Cambridge: Cambridge University Press, 1995; Saunders T.Plato on Women in the Laws, in A. Powell (ed.), The Greek World. London: Routledge, 1995,pp. 591–609; Schofiled, M.: Religion and Philosophy in the Laws. In Scolnikov and L.Brisson (eds). Plato's Laws: From Theory into Practice. Proceedings of the Sixth Symposium Platonicum, Sankt Augistin, Academia Verlag, 2003, pp.1-13; Михаленко Ю. П. "Политический идеал Платона в контексте реальной истории. М.: ИФ РАН, 2003; Слезак Т. А. "Как читать Платона".СПб.,2008; Карл А. О понятии философии у Платона. Владивосток, 2012

[1] Виндельбанд В: История древней философии, Киев, 1995, стр.157

[2] Философская Энциклопедия. т. 4, стр. 45-48

Hegel "Fəlsəfə tarixinə dair mühazirələr" əsərində Platonu "böyük yunan" adlandırır və onun fəlsəfəsinin yunan fəlsəfəsi tarixində yeni mərhələ açdığını göstərirdi. Onun fikrincə, əslində Platonun dövlətin filosoflar tərəfindən idarə edilməsi tələbi dövlətdə hər şeyin universal prinsiplərə əsaslanaraq müəyyən edilməsi deməkdir. Platonun ayrılıqda şəxsiyyətin biliyini, arzusunu, qərarını, onun öz ayaqları üstə durması haqqındakı hüququnu rədd etdiyini bildirən Hegel müəyyən etmişdi ki, Platon dövlət, hüquq və idarəetmə sisteminin ağıl və gözəllik qanunları əsasında qurulmasında israrlı idi[1].

Platonun əsərlərinə dair digər dillərdə olan ədəbiyyatlarla yanaşı, orijinaldan, yəni qədim yunan dilindən olan tərcümələr də mövcuddur. Həm də bu tərcümələr rus, Azərbaycan və ingilis dilli ədəbiyyatlarda da fərqli məqamlarla əks olunmuşdur. Platon irsinə, onun əsərlərində qanun və qanunçuluq elementlərinə, həmin qanunların fəaliyyət göstərdiyi dövlət tipinə dair çoxsahəli araşdırmalar aparılmış olsa da, bu irsə maraq heç vaxt azalmamışdır. Bu üstünlük Platon dühasının möhtəşəmliyi ilə yanaşı, həm də onun təsis etdiyi Platon Akademiyasının fəaliyyəti ilə əlaqədardır.

Böyük filosofun tədqiqatçılarından məşhur ingilis filosofu B.Rassel Platonun siyasi baxışlarının analizinə xüsusi diqqət yetirir. O, böyük yunanın siyasi sisteminin ruhunu necə varsa elə də açmağa cəhd etmişdir. B.Rassel həmin sistemin dörd aspektinə xüsusi diqqət yetirir və onlar içərisində ilkin yerə Platonun utopiyasını, onun siyasi fəlsəfəsini qoyur. O yazır ki, "Dövlət" Platonun ən mühüm dialoqudur".[2] Daha sonra Rassel göstərir ki, "ideal dövlətin qurulması" və "ədaləti müəyyən etmək" bu əsərin əsas vəzifəsi hesab edilir.

Platonun bütün siyasi fəlsəfəsinin dövlət, ədalət və s. haqqındakı baxışlarının mərkəzində vahid bir ideya dayanır – qanun və onun tətbiq mexanizmi. B.Rassel Platonun fəlsəfəsinin "ədalət", "xeyir", "şər", "xeyirxahlıq" və s. kimi anlayışlarının analizini aparır və bütün hallarda onun sisteminin həmişəyaşarlığını qabartmağa çalışırdı.[3]

Bizə gəlib çatan əlyazmalar onun 34 dialoqunu özündə birləşdirir və buraya "Sokratın Apologiyası" da daxil olmaqla 13 məktub və "Tərif" daxildir.

---

[1] Гегель: Лекции по истории философии, кн.I, ч. II, стр. 220

[2] Рассел Б. История Западной философии, Новосибирск, 1997. стр.116

[3] Рассел Б. История западной философии. Москва, МИФ, Глава XIII. Источники взглядов Платона, 1959

Rusiyada A.A.Kozlov, A.V.Mişulin, M.A.Dinnik, V.F.Asmus, C.Trubetskoy, B.Solovyev və başqaları Platon fəlsəfəsini, o cümlədən onun siyasi fəlsəfəsini daha ətraflı şəkildə tədqiq etmişlər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti antik dövrdə dünyanın qabaqcıl xalqlarının, xüsusilə yunanların dövlət, qanun və qanunçuluq haqqında təsəvvürlərinin formalaşması prosesinin dialektikasının açılışıdır. Bu prosesin zirvəsini Platonun siyasi fəlsəfəsi, dövlət, qanun və qanunçuluq, siyasi idarəetmə mexanizminin mahiyyəti, idarəedənlərlə idarəolunanlar arasında qarşılıqlı əlaqə və münasibətlərin tənzimlənməsi haqqında onun ideyaları durur. Həmin ideyaları zəmanəmizin dövlət, qanun və qanunçuluq, idarəetmə mexanizmi haqqındakı baxışlarından çıxış edərək analiz etmək, müasirlik baxımından dəyərləndirmək tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi qanunların yaranmasının tarixi xronologiyası, Platonun əsərlərində, xüsusilə "Dövlət" və "Qanunlar" adlanan dialoqlarında siyasi təfəkkür metodlarından istifadə etməklə dövlətin məhz yazılı qanunlarla idarə olunması zərurətinin müəyyən edilməsidir. Bu məqsədə nail olmaq üçün **tədqiqatın aşağıdakı vəzifələri** müəyyən edilmişdir:

- Qədim dövrdə qanun haqqında təsəvvürlərin formalaşması və qanun yaradıcılığı;
- Platon fəlsəfəsində qanun ideyasının özünəməxsusluğunun öyrənilməsi;
- Platon yaradıcılığında ədalət ideyasının qoyuluşu;
- Platonun əsərlərində əxlaqi imperativlər və qanun ideyasının qarşılıqlı təhlili;
- Platon sisteminə görə, dövlət idarəçiliyində qanunun əhəmiyyətinin araşdırılması.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri mənbə və əsaslarını Platonun yaradıcılığı, onun yaradıcılığındakı qanun və qanunvericiliklə bağlı problemlərə toxunan yerli və xarici tədqiqatçılara, filosoflara məxsus əsərlər təşkil edir. Tədqiqatın metodoloji əsaslarını tarixi-müqayisəli təhlil, məntiqi ümumiləşdirmə metodları və digər yanaşmalar təşkil edir. İşdə varislik, tarixilik və konkretlik prinsiplərini ehtiva edən kompleks tədqiqat üsulundan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

1.Qədim Şərqdə - Babilistanda, Misirdə, Hindistanda, Çində, qədim yəhudilərdə (Şulqa qanunları), Qədim Yunanıstan və Romada qanun yara-

dıcılığının genezisi və inkişaf xüsusiyyətləri ətraflı araşdırılmış, geniş təhlil olunmuşdur.

2. Platonun "Dövlət" və "Qanunlar" əsərlərində ideal dövlətin idarəçiliyində ədalət ideyası və onun əsas prinsipləri açıqlanmışdır. Platonun yaradıcılığına əsasən ədalətin dövlət idarəçiliyində, qanunların tətbiqi, idarəedənlər və idarəolunanların qarşılıqlı əlaqə və münasibəti prosesində meydana çıxması göstərilir.

3. Platon fəlsəfəsində qanunların ikili mənbəyə malik olduğu fikri yer alıb. Belə ki, orada qanunun inkişafı bir tərəfdən Tanrının adı ilə əlaqələndirilir, digər tərəfdən isə təbii hadisələrə (insanlararası və insan-təbiət münasibətləri) bağlanır.

4. Platon fəlsəfəsində qanun ideyası qanunların əxlaqi imperativlərlə qarşılıqlı əlaqə və vəhdətdə olması dəlillərlə əsaslandırılmışdır.

Platonun "Aparıcı zəka", "idarəedici zəka", "bəşəri sərvət", "ideal qaydalar", müdriklik, həqiqət, qayğı, cəsarət, əxlaq, və s. anlayışlara münasibəti yeni tərzdə tədqiqə cəlb olunmuşdur.

5. Platonun fəlsəfi təfəkkürü özündə iki məxsusi düşünmə məntiqini, reprezentasiya məntiqini (normaları) və fərqlilik məntiqini (istisnaları) birləşdirir. Bu məntiqlər hazırda da XXI -ci əsr fəlsəfəsinin iki aparıcı istiqamətinin ( neoplatonizm və antiplotanizm) əsasında dururlar.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti.** Tədqiqat materiallarından və onun əsas müddəalarından mövzuya dair gələcək araşdırmalarda istifadə edilə bilər. Tədqiqat işinin materialları və əsas nəticələri elmi işlərin, xüsusi kursların hazırlanmasında, ali məktəblərdə müvafiq fənlərin tədrisi zamanı istifadə edilə bilər.

**İşin aprobasiyası**. Dissertasiya işi Xəzər Universitetinin Fəlsəfə kafedrasında yerinə yetirilmiş və müzakirə olunaraq müdafiəyə tövsiyə edilmişdir. İşin məzmunu və əsas müddəaları müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə nəşr edilən elmi jurnallarda, o cümlədən elmi-praktiki konfrans materiallarında çap etdirdiyi elmi məqalələrdə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, 8 yarım fəsil nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi şərh edilir, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi

yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri və praktik əhəmiyyəti, işin abrobasiyası və strukturu açıqlanır.

Dissertasiyanın **"Qanun anlayışının genezisi və inkişaf tendensiyaları"** adlı birinci fəslində qədim Şərq xalqlarında qanun haqqında təsəüvvürlərin formalaşması prosesinin başlanması və qədim dünyanın ən qabaqcıl ölkəsi olan Yunanıstan, xüsusilə Afinaya həmin proseslərin yayılması kimi məsələlərə həsr edilmişdir. Burada əvvəlcə qanun anlayışının formalaşması prosesinin çox mürəkkəb təbiətini açmağa cəhd edilir. Bildirilir ki, qanun anlayışına indiyədək müxtəlif ölkələrin tədqiqatçıları diqqət yetirsələr də qanunların genezisinin dəqiq tarixi, onları doğuran konkret şəraitin xüsusiyyətləri, ilkin dövrlərdə qanunların tətbiq mexanizmi bu günədək açıq qalır, lakin bütün hallarda qanunların genezisinin sosial-siyasi faktorla şərtləşməsi artıq hamı tərəfindən qəbul olunmuşdur.

Bu fəslin birinci yarımfəsli **"Qədim Şərqdə qanun haqqında ilkin təsəvvürlərin formalaşması"** adlanır. Burada qanunların genezisi ilə dərindən məşğul olan amerikalı tarixçi və hüquq mütəxəssisi Con Zeynin (1863–1937) fikirləri ətraflı təhlil olunur. O, ilahi qanunlar, qaydalar, təbiət qanunları və adətlər haqqında maraqlı fikirlər irəli sürmüşdür. Tarixçi-alimin fikrincə, qanunların ilahi genezisi məsələsi həm Şərqdə, həm də Qərbdə çox geniş yayılmışdır. Qədim Şərqdə "faktorlar nəzəriyyəsinin" tərəfdarları qanunların genezisinin təbiətlə əlaqələndirməyə meyl etmişlər. C. Zeyn qanunların tarixinə ithaf olunmuş çox aktual əsər hesab edilən "Qanun Hekayəsi" kitabında yazır ki, "əgər biz Misiri bir kənara qoysaq, ....bəşər sivilizasiyasında qanunların meydana gəlməsi xronologiyasını belə təsvir edərdik:...o, əvvəlcə Semitlər tərəfindən Babilistanda yaranıb, sonralar Fələstinə, oradan da Yunanıstana, Romaya, kontinental Avropaya və İngiltərəyə keçmişdir"[1].

Qədim Şərqdə qanunların intişar tarixi həm də onun etik münasibətlər, elm tarixi və siyasətlə əlaqəli olmasıdır. Təbii olaraq, burada, zaman və şərait daha mühüm amillər hesab edilir.

Qanunun ilkin genezisi və yaranışı heç də təəccüb doğurmayan bir faktı ehtiva edir: insanlar və onların yaşayışı daim bir sosial təşkilati quruluşa malik olmuşdur. İnsanların sosial yaşayış tərzinə malik olması faktı qanunun meydana gəlməsi üçün tarixi köklərə malikdir.Qanunlar sosial cəhətdən formalaşmış insan zəkasının fiziki mühitə uyğunlaşması və bu mühiti daim fəth etməsi prosesləri ilə bağlıdır. Sosial adaptasiya, onunla təmasda formalaşma və inkişaf zərurəti ən azı aşağıdakı əqli nəticələri çıxarmağı

---

[1] Zane J.M. The Story of Law. p.56.

mümkün edir:-məhz insanın sosial təbiəti qanunun tarixi üçün fundamental fakt hesab edilir;-qanunlar özləri də mental təbiətin məhsulu hesab edilir; -tarixən insan zəkasının təbiəti dəyışdiyi üçün qanunlar da daim inkişaf və təkamül keçmişdir; - qanunun tarixi kökləri insanların fiziki və əqli inkişaf prosesləri ilə bağlı olan və sayı bilinməyən əsrlərin məhsuludur.

Qədim Şərq qanunlarının ilkin yaranışına dair daha çox istinad edilən məlumatlar Qədim Misir, Qədim Babilistan, Qədim Hindistan və Qədim Çin mənbələri ilə bağlı olmuşdur. Azərbaycanlı alim Əfsər Sadıqov qeyd edir ki, "Qədim Hindistanda Manu qanunları, Babilistanda Hammurapi qanunları, Assuriya çarlarının Əl-Amaran yazışmaları, Əhəməni (İran) çarı Daranın Bisütun yazıları və s. ilkin hüquq normalarının yaradılmasında mühüm rol oynamışdır. Eramızdan əvvəl 3200-ci illərə təsadüf edən Laqaş və Umma şəhər-dövlətləri arasında bağlanan sazişdə mübahisələrin arbitraj qaydasında həllinə xüsusi önəm verilmişdir ki, bu da müharibələrin qarşısının alınması üçün əhəmiyyətli olmuşdur."[1]

Qədim Misirdə qanunun əsas məqsədi Maatın (qədim Misirdə həqiqətin, əxlaq və harmoniyanın təcəssümü, Yeri xaosdan qoruyan ilahi qüvvə) kosmik qaydaların Yerdə dərk olunması idi. Maatın mənası həqiqətin və ya ədalətin idealı kimi göstərilirdi.

282 maddədən ibarət olan Hammurapi qanunlarına görə isə varisliyə söykənmə və bioloji mənsubiyyət sosial norma və qaydalarda aparıcı xətt hesab edilirdi. İcma üzvləri tam və natamam hüquqlu şəxslərə bölünürdü və onların bir-birindən fərqli hüquqları vardı. "Cəmiyyətin tamhüquqlu üzvləri (avilum-kişi, adam) onun əsas özəyini təşkil edirdi..., bütövlükdə, Hammurapi qanunlarında kənd icmasının təbəqələrə bölünməsi xeyli geniş yayılmışdı, daha firavan həyat şəraiti olanlar daha çox müstəqil olurdular...,"[2] lakin onlardan fərqli "muşkenlər" - tamhüquqlu olmayan şəhər əhalisi hesab edilirdi.

İctimai, siyasi və iqtisadi həyatın idarə edilməsində xeyli qanunlar - əmlaka vurulan ziyana və bədən xəsarətlərinə görə cəza, qulların vəziyyətinə dair qanunlar, kişi və arvad arasında nikah münasibətləri, atanın övladları üzərində məhdud hakimiyyətinə dair qaydalar, dövlətin mühakimə hüquqları, pul vahidlərinin və qiymətli metalların işlədilməsi və dəyərləri haqqında qanunlar toplusu və s. yazılı şəkildə təsbit olunmuşdu.

Qədim Hindistanda ilk qanunlar toplusu kimi "Riqveda" göstərilir. Burada qanunlara dini məzmun verilirdi. Bu qanunların dini və etik aspekti

---

[1] Sadıqov Ə. Beynəlxalq iqtisadi hüquq. Bakı, 2008, səh. 8

[2] Черниловский З. Всеобщая история государства и права. стр. 21

vəhdət təşkil edirdi. Qədim hind mənbələrində Manu qanunları varnalıların həyat tərzinin təsvirinə həsr edilmişdi. Həmin dövrdə brahmanlara dini nümayəndələr, bilicilər və kahinlər kimi cəmiyyətdə daha çox hörmət göstərilirdi, kşatrilər hərbi peşələrə yiyələnir, vayşilər isə azad icma nümayəndələri hesab edilirdi. Şəxsi əmlakın qorunması haqqında qanun Manu dövləti üçün çox xarakterik idi. Burada əmlak hüququnun yeddi müxtəlif üsulları göstərilirdi, məsələn: bağışlama, satınalma, irsən keçmə, sələm yolu ilə əldə etmə və sair.

Qədim Çinin qanun, dövlət, qanunçuluq haqqında təsəvürrləri – Konfusiçilik, Daosizm və Leqalizm istiqamətlərində inkişaf etmişdir. Çində mərkəzi dövlətin yaradılması qanunların yaranması prosesinin sürətlənməsinə səbəb oldu. 3000 maddədən ibarət qanunlar toplusu tərtib edildi ki, bu da qanunların təbiəti, mənbəyi, bazası haqqında konsepsiyanın yaranmasına səbəb oldu.

Bu fəslin ikinci **"Qədim yəhudi təsəvvüründə qanun ideyası"** adlı yarımfəslində bildirilir ki, qədim yəhudi qanunlarının tarixi və yaranması haqqında tədqiqatçılar tərəfindən xeyli iş aparılsa da burada çoxlu sayda mübahisəli məsələlər hələ də qalmaqdadır.

Bu gün qədim yəhudilər arasında Şulqa qanunları ən qədim hüquqi aktlar hesab edilir. Şulqa qanunları əsasında həyata keçirilən islahatlar həyat fəaliyyətini, vergiləri və təsərrüfat həyatını asanlaşdıran normalar müəyyən etdi, çoxərlilik ləğv edildi, kənd icmalarında məhkəmə sistemi təşkil edildi. Şulqa Laqaşda (şəhər-dövlət) vətəndaş hüquqlarını bərpa etdi və sivil qanun-qaydaların həyata keçirilməsi üçün ilkin addımlar da elə burada atıldı.

Qanunvericilik yəhudilərin Fələstinə daxil olduqları vaxta kimi müqəddəs Moisey (Musa) tərəfindən elan olunmamışdı. Daha doğrusu, Tövratın qanunvericilik hissəsi indiki vəziyyətdə yəhudi tarixinin birinci mərhələsinə deyil, sonrakı tarixınə aiddir."[1] Bu tezislər belə qənaətə gəlməyə imkan verir ki, qanunlar haqqqında ilkin yəhudi təsəvvürləri nəinki "yəhudilərin qədim Fələstinə daxil olduqlarından əvvəl yazılı şəkildə nəşr edilməmişdi, eyni zamanda yalnız onların kiçik bir hissəsi müstəqillik əldə edilməzdən əvvəl yazılmış və ictimailəşdirilmişdir; bu qanunların əsas, "Kahinlik kodeksi" adlanan hissəsi isə yalnız istila zamanı və ondan sonrakı dövrdə yazılı şəkildə sonradan tərtib olunmuşdur."[2] Bu maraqlı tarix daha

[1]Фрэзер Д.Д. Фольклор в Ветхом Завете. (пер.с анг.) 2-е изд, Москва, Издательство политической литературы, 1990, с. 413 (Глава 1-Закон и его место в Еврейской истории).

[2] Yenə orada. стр. 413

çox semitlərin hərbi müdaxilələr və xarici müdaxilələrdən qorunma zərurəti ilə əlaqədar olmuşdur; odur ki, Babilistanın fəthindən sonra qanunların hansı mərhələdə yalnız İvrit (yəhudi) qanunları kimi formalaşdığını iddia etmək çətinlik yaradır. Göründüyü kimi Yəhudi qanunlarının yaranmasının uzun və keşməkeşli bir tarixi vardır ki, bu da bizə bir sıra ümumiləşdirmələr aparmağa imkan verir.

Birincisi, Babilistanın işğalından sonra xeyli miqdarda babil qanunları yəhudi təsəvvürünə uyğunlaşdırılmış və qanuniləşmişdir.

Buna ikinci bir amilin təsiri də inikassız ötüşməmişdir. Bu, yəhudi diasporu arealının digər xalqlara nisbətən daha geniş olması ilə əlaqədar olmuşdur; yəni, yəhudilərin fiziki yaşayış sahəsinin coğrafi rəngarəngliyi həm də müxtəlif ölkələrdə və ərazilərdə yaşayan yəhudi icmalaranın öz qanunlarının digər icmalara ötürülməsi ilə nəticələnmişdir.

Digər bir məsələ də maraq doğurmaya bilmir. Belə ki, qədim yəhudi təsəvvüründə qanunun yaranması ilə onun yazılı məcəllə şəklində nəşri arasında xeyli vaxt fərqi vardır. Doğrudur, bütün qədim Şərq tarixində bu meyil və ənənə tarixən belə formalaşsa da, qanunların hər iki formada intişar tapmasında mifoloji, antropomorf və dini - ilahi faktorlar həmişə prirekvizit rolunda çıxış etmişdir. Yazılı qanunların yaranmasında isə sinfi, dini və tayfa mənafelərinin qorunması üstünlük təşkil etmişdir.

**“Qədim Yunanıstan və Romada qanun yaradıcılığı”** adlanan üçüncü yarımfəsildə göstərlir ki, Qədim Yunanıstanda qanun yaradıcılığı Homerin həyat qanunlarına əsaslanan "Themis" və "Themistes"-in (qədim yunanlarda qayda-qanun, ədalət allahı hesab edilirdi) adı ilə bağlıdır. Bu ad daha sonralar yunan panteonlarında (allahlara həsr edilmiş məbədlərdə) ədalət allahı hesab edilmişdir. Onun adı Homerin “İliada”sında Zevsin hüquq işlərinin qiymətləndiricisi kimi yer almışdır. Göründüyü kimi, bu sahədə araşdırıcılar belə qənaətə gəlmişlər ki, bəşəriyyətin ibtidai şəraitində insanlar qanunların təcəssümü kimi həmişə davamlı olaraq və təkrarlana bilən insan agentləri faktorundan isifadə etmışlər.

Temis Zevsin ikinci arvadı hesab edilirdi. O öz təkliflərində “aşağıdakı qanun konsepsiyasını irəli sürürdü: allaha sədaqətli olmaq və ona sitayiş etmək; valideynlərə sadiqlik nümayiş etdirmək və ədalətli olmaq; qonaqpərvərlik qaydalarına riayət etmək; yaxşı idarəçilik; yığıncaq qaydaları“[1]. Müxtəlif bayramların kişilər tərəfindən ümumi qaydalara müvafiq olaraq keçirilməsi, ümumi qurbanların verilməsi, bu ritualların daha da

---

[1] Maine H.S. Ancient Law, its connection with the early history of society and its relation to modern ideas. pp. 6-8,

cilalanması, mövcud qaydalara ixtiyari və qeyri-ixtiyari olaraq hörmətsizlik göstərilməsinə görə cəza tədbirlərinin görülməsi imperativ addımlar hesab edilirdi. Henri Şumer Mayne (1822-1888, İngiltərə) özünün Londonda nəşr olunan "Antik qanun, onun cəmiyyətin erkən tarixi və müasir ideyalarla əlaqəsi" adlı əsərində antik yunan və Roma qanunlarının tarixinin, yaranma və inkişaf tendensiyasının daha çox din və adətlərlə əlaqələndirməsi bir çox alimlərin, o cümlədən alman tarixçiləri və hüquqşünasları Fredrik Karl von Saviqninin (1779-1861) və Uilyam Halloveyin (1829-1893) etirazına səbəb olmuşdur. Onların fikrincə, Şumer Mayne qədim Yunanıstan və Romada "qanunların yaranmasında xarici elementlərin müdaxiləsi"ni nəzərə almamışdır. Bundan əlavə, onlar qeyd etmişlər ki, "qanunların bir sinfin və ya hadisənin adı ilə adlandırılması hələ ona yaşam hüququnun (jus singulare) verilməsi demək deyildir."[1]

Qədim Yunanıstanda hüquqi münasibətlərin inkişafına əsaslanan 3 dövr mövcud olmuşdur: Homer dövrü (e.ə. XI -VI əsrlər) - qohumluq və tayfa münasibətlərinin inkişafı və sonradan tənəzzülü ilə səciyyələnən dövr; - arxaik dövr (e.ə. VIII -VI əsrlər) - sinifli cəmiyyətin və dövlətin yaranması dövrü; - klassik dövr (e.ə. V-IV əsrlər) – qədim yunan quldarlıq cəmiyyətinin çiçəkləndiyi dövr. Beləliklə, e.ə. IV əsrdə ellinizm dövlətinin yaranması Qədim Yunanıstanda hüququn inkişafı üçün mühüm dövr hesab edilir.[2]

E.ə. 624-cü ildə ən qədim yazılı qanunlardan hesab edilən Drakonto qanunları meydana gəldi. Bu, kənardan alınmış qanunların deyil, ölkə ərazisində istifadə olunan qanunların toplusu idi. Qanuna görə, hərbi qulluqçular və torpaq sahibləri borclardan azad edilirdilər və onların seçib - seçilmək hüquqları var idi. Afinada 30 yaşdan yuxarı şəxslərin səsverməsi ilə bir il müddətinə seçilən 401 deputatın bir araya gəldiyi ilk idarəedici Məclis yarandı. Qanunlar sadəcə olaraq *"Ex parte"*lərdən (latınca - "məclis") gəlirdi və heç də tərəflərin mövcud olmasını vacib hesab etmirdi; onlar deklarativ xarakter daşısa da, həyati qanun kimi yerinə yetirilməli idi. Bu vaxt, ilk dəfə olaraq qanunların tətbiqinə nəzarət edən Ali Məhkəmənin bünövrəsi qoyuldu. Oğurluq, qəsdən yanğın, qətl və daha bir neçə digər cinayətləri törətmək üçün ölüm cəzası nəzərdə tutulurdu. Drakontonun qanunları öz sərtliyinə görə seçilirdi, odur ki, Afinada bunların həyata keçirilməsində xeyli əngəllər də yaranırdı.

---

[1] Maine H.S. Ancient Law, its connection with the early history of society and its relation to modern ideas, p. 51

[2] Черниловский З. Всеобщая история государства и права. стр. 45-46

E.ə. 594-cü ildə siyasi arenaya arxontlar tərəfindən seçilmiş Afinalı siyası xadim və mütəfəkkir Solon (e.ə.638 - e.ə. 558-ci illərdə) daxil oldu. O, bir sıra dövlət reformalarını həyata keçirməyə başladı və bununla da qədim yunan dövlətçiliyi tarixində dövlətin demokratik üsulla idarə edilməsinin ilk nümunəsini yaratmış oldu. Buraya əhalinin müxtəlif qurumlara olan borclarının silinməsi, iri oliqarxiyaların nəzarətdə saxlanılması, məhkəmə dinləmələrinin tətbiqi və orada sadə xalqın nümayəndəsinin iştirakının təmin edilməsi kimi islahatlar daxil idi. Solon öz dövründə Afina cəmiyyətinin müxtəlif tayfalara bölgüsünü ləğv etməmişdi, lakin gelieylərin, yəni məhkəmələrin və eləcə də vacib dövlət işlərini müzakirə edərək mühüm qanunlar qəbul edən xalq yığıncaqlarının əhəmiyyəti hələ də saxlanılırdı. Solona qarşı bəzi çıxışlar olsa belə, o yunan tarixində ilk qanun islahatçısı kimi qaldı. Xalq yığıncağında müharibə və sülh, digər dövlətlərlə sazişlərin imzalanması kimi mühüm qərarlar qəbul edilirdi. Dövlətin başında iki çar dayanırdı. Baş kahin və cəmi beş nəfərdən ibarət kahinlər qrupu isə ildə bir dəfə seçki yolu ilə seçilirdilər. Bunlar hökumətdə nizam-intizama nəzarət edir, bütün vəzifəli şəxslərin fəaliyyətini izləyir və yalnız onları əvəzləyənlər qarşısında hesabat verirdilər. Onların hakimiyyətdə heç kimə hesabat verməməsi çoxlu neqativ hallara yol açırdı.

Spartanı isə Gerusiya - Ağsaqqallar Şurası idarə edirdi və buraya Spartanın ən tanınmış 28 nümayəndəsi daxil idi. Gerusiya üzvləri gerontlar adlanırdı və bu vəzifəyə onlar əbədi olaraq seçilirdilər və heç kimin qarşısında məsuliyyət daşımırdılar. Onlar məhdudiyyətsiz olaraq bütün maliyyə, hərbi və məhkəmə işləri ilə məşğul olurdular. Lakin eforların hakimiyyəti gücləndikcə gerontlar tədricən sıxışdırılırdı.

Beləliklə, qədim Yunanıstanda qanunların və hüququn inkişafı tarixində aşağıdakı mühüm xüsusiyyətləri qeyd etmək olar:- qədim Yunanıstanda qanunlar və onlara dair islahatlar çox təzadlı xarakter daşıyırdı; - ölkənin daxilindəki ictimai təbəqələrin müxtəlifliyi, qanuni təsəvvürlərin ziddiyyətlərlə inkişaf etməsinə şərait yaradırdı; -mülkiyyət hüququ haqqında yazılı qanunvericiliklər olsa da, hələ də vətəndaşın daha geniş hüquqları haqqında danışmaq olmazdı; - ailə və varislik hüququ mütləq xarakter daşıyırdı, lakin qadınlar ailədə asılı şəxs olaraq qalırdılar və bərabər hüquqdan soz gedə bilməzdi;- cinayət hüququ xeyli təkmil hesab edilirdi və ölüm cəzası da daxil olmaqla, bir sıra cəza tədbirləri mövcud idi, lakin bunlar cinayətin qarşısının alınmasına deyil, daha çox cinayətkara əzab verilməsi üzərində qurulmuşdu; - məhkəmə sistemində apelyasiya hüququ saxlanılsa da, bütün vətəndaşlar bərabərhüquqlu hesab edilmirdilər.

Romalı vətəndaşın ayrıca pay torpağı əldə etmək və mirasa sahib çıxmaq hüquqları var idi. Bundan başqa hər bir romalı öz icmasında yardım almaq, lazım gəldikdə müdafiə edilmək, ümumi və dini bayram və mərasimlərdə iştirak etmək hüquqlarına malik idilər.Ağsaqqallar Şurası və ya senat (lat: senatus-qoca) tayfanı idarə edirdi. Hökmdarın yanında da senatlar mövcud idi və onlar xalq yığıncaqlarında iştirak edirdilər.

Roma tarixində ən yaxşı nümunə sadə və üstünlüyü olan adamların ilk yazılı qanunları olan “On iki cədvəl” Qanunu oldu. On iki lövhə üzərində cədvəl şəklində işlənən bu qanun Romanın baş meydanında, ümumxalq meydanı hesab edilən Forumda sərgilənmişdi. Onun əsas cəhətlərindən biri, bu formal münasibətləri nizamlaması idi. E.ə. 455-ci ildə 10 nəfərdən ibarət olan bu komissiya hər iki tərəfi - həm sadə, həm də üstünlüyə malik olan vətəndaşları razı salacaq və iki təyin olunmuş hakim tərəfindən qərəzsiz həyata keçirilən bu qanunu işləyib hazırladı. Qanunlar ailə-nikah və mülkiyyət münasibətlərini, varislik hüququ normalarını, borc, dövlət və cinayət hüququna dair məcəllələri özündə əks etdirirdi.

Dissertasiyanın ikinci fəsli **“Platonun yaradıcılığında qanun və qanunçuluq ideyaları”** adlanır. Bu fəslin “**Platon fəlsəfəsində qanun ideyası və onun özəllikləri”**adlı birinci yarımfəslində göstərlilir ki, qanunun özəllikləri “Qanunlar” əsərində və Platonun digər dialoqlarında yer almış olsa da, Platondan bizə qanun ideyalarının şərhini verən 13 yazılı məktub qalmışdır. Platonun “ideyalar”ı “Qanunlar” əsərində mütləqiləşdirilərək son həddə çatdırılır. Görünür, özünün sonuncu, lakin tamamlanmamış əsəri olsa belə, Platon öz ahıl vaxtında yazdığı bu əsərdə həddindən artıq məntiqi tələblərlə çıxış etməyi öz qarşısına məqsəd qoymuşdu. “Qanunlar” əsərinin özü də məntiqi cəhətdən tamamlanmamışdır.

Məntiqi ardıcıllıqlardan kənar görunsə belə,“Qanunlar” əsəri Platon yaradıcılığında xüsusi bir zirvədir. Qədim Krit adalarında dialoqda iştirak edən personajlar Afinalı, Kliniy və Megildir. Onlar yayın ortasında, günorta üstü Knosdan (Cnossos) Zevs Mağarasına (Cave of Zeus) səyahət zamanı yolda dincəlmək üçün dayanırlar və qanunlardan bəhs edirlər.

“Qanunlar” əsəri ümumiyyətlə, dövlət quruculuğu və qanunvericilik məsələlərinə həsr edilmişdir. Platonun burada irəli sürdüyü ideyalardan biri - qanunun qanunvericilik əsasında formalaşması, müharibələrə və tayfalararası ədavətə zidd olması, xeyirxah işlərə, ədalətə, ümumi vətəndaş həmrəyliyinə və sülhə xidmət etməsidir. Heç də təsadüfi deyildir ki, Platon idealizmi bu əsərdə “aparıcı zəka”ya söykənir. Platonun təbirincə desək, bu zəka bəşəri sərvət naminə çalışmalıdır. Platon bu qanunları ideyaların deyil, məhz zəkanın məhsulu hesab edir. Sonuncu isə özlüyündə həm fərdi, həm də

ictimai münasibətlər məcmusunu nəzərdə tutur və onlar bir-biri ilə qarşılıqlı əlaqə və vəhdətdədir. Bu "idarəedici zəka" ictimai münasibətlərin bütün məcmusunu - ailə və nikah məsələlərini, uşaqların tərbiyəsini, vətəndaşların fiziki və psixi vəziyyətini, onların şərəf və ləyaqətlərini, cəmiyyətdə mövcud olan bütün könüllü təşkilatları və sair kimi geniş sosial, iqtisadi və humanitar məsələləri əhatə edir.

"Qanunlar"ın əsas ideyalarından biri də *xeyir qüvvələrin təntənəsidir.* Dialoqdan məlum olur ki, Afinalı qanunların tədqiq olunması üçün *çıxış nöqtəsinin başqa şeylərdə deyil, xalqa töhfə olunan "sərvətdə axtarmağın zəruriliyini göstərir* və bu "sərvətın" iki növü olduğunu söyləyir: birincisi, insani, digəri ilahi sərvətlər adlanır. İnsani sərvətlər ilahi sərvətlərdən asılıdır. İlahi sərvətin strukturuna gəldikdə, Afinalı birinci yerdə dərketmənin, ikinci yerdə zəkanın, yəni ruhun sağlam olmasının, üçüncü yerdə bu iki sonuncunun birləşməsindən əmələ gələn ədalətin, dördüncü yerdə kişilik və ya fədakarlığın gəldiyini qeyd edir.[1]

Təzadlı məqam onunla bağlıdır ki, "qanun" anlayışının genezisini təhlil edərkən Platon ziddiyyətli mövqe tutur. Belə ki, qanunların yaranması *bir tərəfdən təbii hadisələrlə bağlanırdısa, digər tərəfdən qanunun intişarı Tanrının adı ilə əlaqələndirilirdi.* "Qanunlar" əsərinin elə ilk hissəsində Afinalı, Kliniy və Megil arasında baş verən söhbətdən də bunu görmək olar. Afinalı qeyd edir ki, "ya Tanrı, ya da başqa planetdən olan bir nəfər qanunların yaranmasında səbəbkar hesab edilir." Dialoqdan göründüyü kimi, Platonun idealist ruhu burada özünü açıq şəkildə biruzə vermişdir.

"Qanunlar" öz quruluşu etibarilə digər dialoqlardan fərqlənir. Burada qanunvericilik ideyasının əsas prinsipləri kimi iki ziddəyyətli məqamı qeyd etmək yerinə düşərdi: *birincisi,* "qanunvericilik müharibə, vətəndaş düşmənçiliyinə söykənməməlidir (ziddiyyət); *ikincisi,* qanunvericilik xeyirxahlığa, insanların sərvət və təhlükəsizliyinə əsaslanmalıdır (harmoniya)." Beləlikdə, ziddiyyət və harmoniyanın qarşılıqlı vəhdət və əlaqəsindən formalaşan qanunvericilik öz təbiətini və tarixi xüsusiyyətlərini formalaşdırmaq üçün obyektiv zəminə söykənmişdir.

Amerika filosofu və hüquqşünası Kairns Hantiqton (1904-1985) Platon qanunlarının əhəmiyyətindən və onun məziyyətlərindən danışarkən qeyd etmişdir ki, "Platon tarixdə qanun normalarını formalaşdıran elə nəhənglərin arasındadır ki, demək olar, Qərb qanunvericilik bazası Platondan gətirilən iqtibaslardan ibarətdir"[2]. Oxşar fikirlərlə çıxış edən ABŞ-ın hüquq

---

[1] Платон. Сочинения в трех томах. Том 3-й. Часть 2-й. стр.93

[2] Huntigton C. Plato's Theory of Law. Harward Law Review, p. 387

nəzəriyyəçisi Holl Ceromi (1929-1986) qeyd etmişdir ki, qanun Platon fəlsəfəsində həmişə mərkəzi ümümiləşdirici bir rola malikdir və Platon "siyasi nəzəriyyə və qanun normalarının bünövrəsini qoymuşdur"[1].

Platon qanunlarının digər bir xüsusiyyəti ondan ibarətdir ki, onun yaratmaq istədiyi *qanunlar sistemi onun əsərlərində müəyyən təkamül prosesi keçmişdir.* Qanun anlayışının təşəkkülü ilkin olaraq sərvətdən başlanır. Lakin bu məhfuma yanaşma Platon əsərlərində xeyli müxtəlifdir.

Platon qanunlarının əsas cəhətlərindən biri də, onların yaranmasının *əxlaqi imperativlərlə bağlı olmasıdır.*

Platonun qanunlarının özəlliklərindən biri də *bəzən onların tərbiyə və əxlaq ilə əvəzlənməsidir.*Qanunların digər bir özəl xüsusiyyəti isə qanunvericilərdən elə qanunlar tələb etməkdir ki, onlar *əhalinin çoxluğu tərəfindən qəbul edilsin.* Platon qeyd edir ki, qanunların həyata keçiril-məsində maneələri aradan qaldırmaq üçün, vaxtilə "qanunvericilər insanlar arasında əmlak bərabərliyini təmin etmişlər"[2]. Beləliklə, Platon qanunlarının bir sıra özəlliklərini aşağıdakı kimi ümumiləşdirmək olar: - qanunlar sitemli və doktrina xarakteri daşıyır və din ilə qarşılıqlı surətdə əlaqədədir; - Platonun siyasi təfəkkürü özündə iki məxsusi düşünmə məntiqini, reprezentasiya məntiqini (normaları) və fərqlilik məntiqini (istisnaları) birləşdirir; - qanunlar, öz yaranışından bəri, daim təkamül prosesi keçirirlər; - qanunların yaranması tarixən qanunvericilərin öz hakimiyyətlərində hökmran mövqelərini yaratmağa, qoruyub saxlamağa və vətəndaş narazılığını yumşaltmağa xidmət edir; - Platon qanunlarının nəzəri və praktik əhəmiyyəti həyat situasiyalarının ən kiçik detallarının təsvirinin polemika yolu ilə açılması metodu ilə həyata keçirilir; - insanların həyatı qanunları tanrıların təfsir etdiyi əbədi zəka və ideyaya əsaslanır; - qanunlar mütləq rejimdə ən ümumi həqiqətlərin tanrılar arasında və insanların həyatında mövcud olan bir təntənəsidir; - qanunların pozulmasında cəza daha çox fakta görə deyil, cinayətkarın ideya və düşdüyü fikirlərinə görə verilir (əxlaqi imperativlərin üstünlüyü); - Platon qanunları humanist xarakter daşıyır və odur ki, hətta sinifli cəmiyyətdə qullara insani münasibətlər ön plana çəkilir; - qanunların mütləq xarakteri qeyri-ixtiyari olaraq yaradılmış totalitar dövlət sisteminə xidmət edir.

Dissertasiyanın ikinci fəslinin **"Platon təlimində qanun dövlət idarəçiliyinin fundamental əsası kimi"** adlı ikinci yarımfəslində "dövlət

---

[1] Jerome H. Plato's Legal Philosophy. Indiana Law Journal, Winter,1956, Indiana University, Vol. 31, No. 2, Article 1, p.171. pp. 171-206

[2] Платон: Сочинения в трех томах. Том 3, часть 2, стр., 154

siyasəti necə olmalıdır?", "hökmdar necə olmalıdır?" kimi suallara cavab axtarılır. Bu sualların yaranması Platonu hərtərəfli bir siyasət fəlsəfəsi və onun nəticəsi ola biləcək bir ideal dövlət nəzəriyyəsi üzərində düşünməyə vadar etmişdir. Əslində isə, bu suallar artıq o vaxt onun həyat məsələsinə çevrilmişdi.

Tək siyasi deyil, bir çox fəlsəfi, o cümlədən, əxlaqi problemlərin yer aldığı "Dövlət" əsərində, eləcə də sonradan yazdığı "Dövlət adamı"nda, fikirlərini yenidən təftiş edərək nizama saldığı "Qanunlar"da Platon öz siyasət fəlsəfəsini sistemli şəkildə inkişaf etdirmişdir. Platon "Timey"[1] adlı qarışıq və mürəkkəb dialoqunda "Dövlət" əsərinin bir hissəsinin xülasəsini vermiş, ideal dövlət haqqında dialoqları davam etdirmiş və onu əsaslandırmağa çalışmışdır.

Məşhur yunan tarixçisi Plutarx da Spartanı tərənnüm edir, onun kommuna tipli ümumyaşayış qaydalarını təsvir edirdi. Aristotel "Siyasət" əsərində Spartaya düşmən münasibətdə idi, Spartanın böyük qüsurlarından, bəhs edirdi.

Platonun fikrincə, ideal dövlət üç zümrədən ibarət olmalıdır: filosoflar idarə etməli, hərbçilər qorumalı, sənətkarlar və əkinçilər maddi nemətlər yaratmalıdırlar. Bu halda hərə öz işi ilə məşğul olmalı, başqasının işinə qarışmamalıdir; bu isə, Platonun təbirincə, elə ədalətin özüdür. Tanrı idarəedənlərin ruhunu qızıldan, hərbçilərin ruhunu gümüşdən, sənətkarlar və əkinçilərinkini isə mis və dəmirdən düzəltmişdir; Platon israr edirdi ki, bunları insanlara daim aşılamaq lazımdır və bu zaman onlar gec-tez bu ideyaya alışacaq və ona inanacaqlar.

Platon zənn edirdi ki, ailənin təşkili də daxil olmaqla, hər şey dövlətin əlində olmalıdır. Kişi-qadın əlaqələri də tənzimlənməli, yaxşılar yaxşılarla, zəiflər zəiflərlə münasibətlər qurmalıdır və bu vaxt hökumətin tövsiyəsinə etiraz etmək olmaz. Qızlar da oğlanlar kimi tərbiyə olunmalıdırlar. Qadınlar idarəetmədə kişilərlə eyni hüquqa malikdir və onlar həm idarəedən, həm də hərbçi ola bilərlər. Dövlət vətəndaşların tərbiyəsi ilə məşğul olmalı, uşaqlar isə xüsusi təhsil və tərbiyə sistemi ilə yetişdirilməli və onlar istedadından asılı olaraq bir zümrədən digərinə (aşağı və ya yuxarı) keçməlidirlər. Platona görə, hətta qanunlara əsaslanan pis hökumət belə qanunlara əsaslanmayan hər hansı hökumətdən daha yaxşıdır. Məsələn, bir başçı dövləti qanunlar əsasında idarə edirsə (monarxiya), bu, tək adamın qanunsuz idarə sistemindən (tiranlıqdan) yaxşıdır; eynilə, azlığın qanunlarla idarə etdiyi

[1] Платон: Сочинеиия в трех томах, том 3-й, часть 2-й, стр., 5.

aristokratlıq sistemi azlığın qanunlarsız idarə etdiyi oliqarx sistemindən yaxşıdır.

Platonun dialoqlarından olan "Dövlət" və "Qanunları"nı,ümumiyyətlə, dövlət haqqında utopik fikirlərə dair Avropa tarixində mühüm yer tutan əsərlər sırasına daxil etmək olar. Bu utopik dövlətin mühüm cəhətlərindən biri *"ideal qaydalar"ın* yaradılmasından ibarətdir.

Platonun əsərlərində qanunlar və onlarla idarəçiliyin zəruriliyi bu nisbətdə ən əlamətdar xüsusiyyət hesab olunurdu və Platon bir addım da olsun bu prinsipdən, yəni *dövlətin qanunlarla idarə edilməsi prinsipindən* geri çəkilmirdi.

Bu fəslin üçüncü yarımfəsli **"Ədalət ideyası və onun əsas prinsipləri"** adlanır. Bu yarımfəsildə ədalət kateqoriyasının insanın mahiyyətinin və onun ayrılmaz hüquqlarının müəyyən edilməsinə xidmət etdiyi izah olunur və Platonun ədalətə münasibəti təhlil edilir. Müasir fəlsəfə ensiklopediyalarında bu məhfumun qiymətləndirilməsi üçün, məsələn, ədalətin "başqalarının şəxsiyyətinə hörmətlə yanaşma", "sərbəst fəaliyyət göstərmələri üçün insanların azadlıq sferasına müdaxilə etməmək", "onlara mədəni dəyərlər yaratması üçün sərbəstlik vermək və bu işdə onlara maneçilik yaratmamaq"[1] kimi yeni atributlardan istifadə edilir və bunlar ədalətin anlayış aparatının təyinedici strukturu hesab edilir.

Platonun ədalət anlayışına ciddi fikir verməsi tamamilə labüd idi, çünki həmim dövrdə Afina hakimiyyətində demokratiya dağılmaqda idi. Digər tərəfdən, onun müəllimi Sokrat, məhz ədalətsiz məhkəmə qərarının qurbanı olmuşdu. Odur ki, o hesab edirdi ki, bu pisliklərlə mübarizə aparmaq üçün ədalətə ehtiyac vardır, O, ədaləti insanın əxlaqi kamilliyi kimi təqdim etmişdir; odur ki, Platona görə ədalət, sanki bir ixtisaslaşma kimi meydana çıxır. Rassel qeyd edir ki, ""Dövlət" əsərinin formal olaraq məqsədi "ədalət"in müəyyən olunmasıdır"[2].

Dövlət termini, həmçinin ədalət barədə mülahizələr Platonun əsərlərində mühüm yer tutur. Platona görə, ədalət fərdi keyfiyyətdir və fərdin ruhuna aiddir. Bu baxımdan ədalət, insan ruhunu, onun funksiyasını, keyfiyyətlərini və fəzilətlərini öyrənməklə dərk edilə bilər. "Həyatında daha çox ədalətsizliyə yol vermiş adamlar yuxudan qəflətən oyanmış uşaq kimi qorxur və yalnız pisliklərin olacağını gözləyirlər. Ədalətsizliyə yol verməmiş insanlar isə sevinc və umidlə yaşayırlar"[3].

---

[1] Философский энциклопедический словарь. М., Инфра. 1999, с. 278.
[2] Рассел Б. История западной философии. Глава XIV, Утопия Платона
[3] Platon. Dövlət. Ədalət haqqında məsələnin qoyuluşu. səh.42.

Platon, ədaləti ideya olaraq görür və hesab edir ki, *ədalət ruhun bir atributudur* və o, siyasi və sosial şəraitdə təzahür edir. Nəticədə, *ədalət sosial və siyasi təşkilatlardan asılı olaraq fərdlər arasında münasibətdir.* O, şəxsi davranış keyfiyyətindən daha çox cəmiyyətin struktur hissəsi olaraq tədqiq edilməlidir. Əgər ədalətli bir dövlət təsəvvür edə bilsək, o zaman ədalətli bir fərdi də təsəvvür etmək çətin olmayacaq.

Platon ədalətin tərifini *"hər kəsin öz payına düşənə sahib olması",* kimi qəbul edir. Başqa sözlə, ədalətli olmaq üçün hər kəs öz işini görməlidir. Ruh o zaman adil hesab olunur ki, onun hər bir hissəsi ağlın nəzarəti altında öz sahəsində fəaliyyət göstərsin. Davranışı isə Platon çoxcəhətli bir atribut sayır və hesab edir ki, onun tərkib hissəsi istək, emosiya və bilikdən təşkil olunmuşdur.

Platona görə yalnız filosof hakim xalqı idarə edə bilər. Platonun ədalət nəzəriyyəsi hesab edir ki, nə qədər ki, filosoflar hakimdir və ya fəlsəfi biliklər, müdriklik və siyasi idarəetmə bacarığı eyni adamda cəmlənmişdir, şəhərlər və insanlar heç zaman əziyyət görməyəcəkdir.

Platonun ədalət ideyasında etik və əxlaqi normalar elə öz təbiətlərinə görə də xeyli imperativ səciyyə daşıyır. Onun ədalət ideyası sanki bir-birinə əks duran anlayış və konsepsiyalardan ibarətdir. Bu isə onun ədalət ideyasının dialektik təbiətə malik olmasından irəli gəlir.

Dissertasiyanın "P**laton fəlsəfəsində qanun və əxlaqın vəhdəti"** adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir. Bu fəslin "**Müdriklik qanun ideyasının təcəssümü kimi"** adlı birinci yarımfəslində bildirilir ki, Platon fəlsəfi dialoqlarında müdrikliyi bu və ya digər şəkildə təhlil etməyə çalışmışdır. Öz müəllimi Sokrat kimi həqiqətin mahiyyətini açmaq üçün o, fəlsəfi dialoqlardan istifadə etmişdir. Platon "Sokratın Apologiyası"nda müdriklik haqqında düşüncələrini bölüşmüşdür. Doğrudur, bu yeganə əsəridir ki, Platon onu qeyri-dialoq şəklində qələmə almışdır, lakin buna rəğmən əsər müdriklik simvolu olan Sokratın mənəvi yenilməzliyini elə onu özünün dili ilə təsvir etməyə çalışmışdır. Platon müdrikliyi ruhun yaraşığı adlandırmışdır.

Sokratın ölüm verdiktinə cavab olaraq söylədiyi nitq öz məntiqi və bədii düşüncə tərzinə görə Platonun əxlaqi-etik düşüncələrinin daha da dərinləşməsinə ciddi təsir etmişdir. Gəncləri öz yolundan çıxarması, tanrıları təhqir etməsi, naturfəlsəfə ilə məşğul olmasını və digər saxta ittihamları irəli sürməklə, Sokratın düşmənləri - Afinalı demokratlar Sokratın mənəvi kamilliyi, müdrikliyi və mühakimələri qarşısında mat qaldığından, onu fiziki cəhətdən məhv etməyə qərar verirlər.

Platon öz yaradıcılığı boyu müdriklik, həqiqət, qayğı, sərvət, bilik və sair kimi etik kateqoriyalara dair xeyli mübahisələr aparmış və insanın nəyin əsasında qərar verməsi məsələsini həmişə diqqətdə saxlamışdır. Məsələn, o, mərdlik və cəsarət haqqında fikirlərini formalaşdırdığı "Laxet" adlı dialoqunda qeyd etmişdir ki, "mən belə fikirləşirəm ki, ən vacib məsələ haqqında səs çoxluğuna deyil, biliklərə əsaslanaraq, qərar qəbul etmək lazımdır."[1] Bütövlükdə isə, Platon cəsarəti xeyirxah bir xüsusiyyət və müdrik bir ruhi dözüm kimi xarakterizə edir.

Platonun müdriklik haqqında fikirlərini - müdriklik insana aid olan xüsusiyyətdir, müdrik adam isə adi insandan yüksəkdə dayanandır, müdriklik yalnız hal-hazırda həyatda yaşayan şəxslərə deyil, həm də həyatdam çoxdan köçmüş adamlara da aiddir, müdrik yalnız hər şeyi bilən deyil, o, həm də nəyi bilmədiyini bilərək onu öyrənməyə cəhd edəndir, müdriklik elə bir xüsusi keyfiyyətdir ki, o, sərvət, sağlamlıq, gözəllik və digər fiziki kamilliklərdən, eləcə də nəsildən, hakimiyyətdən və xoşbəxtlikdən daha yüksəkdə dayanır, müdriklik insanın can atdığı və həyatı boyu əldə etmək istədiyi bir məqsəddir, hər bir müdrikliyin əsasında isə dözüm və səbr dayanır.

Üçüncü fəslin ikinci yarəmfəsli **"Əxlaqi imperativlər və qanun"** adlanır. Burada bildirilir ki, Platonun yaratmaq istədiyi cəmiyyətin idarə olunmasında qanunlar əxlaqi imperativlərlə qarşılıqlı əlaqədə və vəhdətdədir. Cəmiyyət həyatının elə bir sahəsi qalmamışdır ki, Platon əxlaqı oraya tətbiq edilməsin və onların qanunlarla necə uzlaşması məsələsinə münasibətini bildirməsin.

Platonun əsərlərində "məmnunluq" və ona yaxın "sərvət" ən çox müzakirə olunan əxlaqi kateqoriyalardan hesab edilir. "Fileb"-də *Platon məmnunluğu həm daxili hiss-həyəcan, həm də əxlaqi kateqoriya kimi təsvir etmişdir.* Məmnunluğun xeyli, hətta bir-birinə əks olan növlərinin belə mövcud olması göstərilir və onların təbiəti çoxluqların vahidlə, ümumi olanla qarşılıqlı vəhdət və dialektikada öz həllini tapır[2]. Ağlın və zəkanın təhlillərindən görünür ki, əxlaqi imperativlər kimi, Platon onları məmnunluq və sərvətdən ayırmır və bu cür ağlı o, layiqli seçim hesab etmir. Ağıl, bilik, hafizə sahibi olsaq və bunlardan heç bir məmnunluq hiss etməsək, başqasının sevincini və ya kədərini bölüşməsək, o vaxt biganə olaraq qalacağıq.

Platonun təsvir etdiyi mücərrəd cəmiyyətdə qanunların ədalətli həyata keçirilməsi üçün müəyyən əxlaqi normaların olması mütləq hesab edilir. "Dövlət"də də Platonun irəli sürdüyü postulatlar sadəcə ehkam olmayıb,

---

[1] Платон. Диалоги. .Лахет . (184 е), стр., 229.
[2] Платон: Сочинеиия в трех томах, том 3-й, часть 1-й, стр., 11-15

məhz o vaxtkı vətənpərvər bir şəxsin qurmaq istədiyi və ya qurmağı arzuladığı ideal bir dövlət və cəmiyyət idi. Bu cəmiyyət yalnız utopik islahatlar deyil, həm də əxlaqi imperativlərin qanunlarla çulğalaşdığı qaydalar daxilində idarə olunan bir qurum idi. Platon əxlaqi dəyərlərdən ayrı salınmış qanunların ümumi sərvətə yalnız ziyan gətirəcəyini söyləyirdi. Platonun fikrincə, monarxiya, aristokratiya və demokratiya qanunlara, tiraniya, oliqarxiya və pozulmuş demokratiya isə mövcud qanunların əksinə işləyir. Qanunların pozulmasında *cəza daha çox fakta görə deyil, əxlaqi imperativlər əsasında cinayətkarın ideya və düşdüyü fikirlərinə görə verilir.*

Dissertasiyanın **Nəticə** hissəsində araşdırmalar üzrə əldə edilmiş əsas nəticələr ümumiləşdirilir və tədqiqata yekun vurulur.

Dissertasiyanın əsas nəticələri müəllifin aşağıda göstərilən əsərlərində öz əksini tapmışdır:

1. Təhsilin fəlsəfəsi və Pifaqor doktrinası. “Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda beynəlxalq elmi-konfransın materialları. Naxçıvan, 6-5 iyun 2015-ci il, s.60-61

2. Bir tarixi, fəlsəfi araşdırma: Pifaqor doktrinası. “Azərbaycan məktəbi” jurnalı, №2, 2015, s.62-65

3. Pifaqor təhsil doktrinası və proqmatik təhsil konsepsiyası. Naxçıvan Müəllimlər İnstitutunun xəbərləri. Cild 11, №3, 2015, s.34-36

4. Социально-политическое положение женщин в Иране после революции 1979 года /ВГО Украинская Академия Наук - ГИЛЕЯ- науковий вiсник. Выпуск 107, №2, Киів, 2016, стр.455-458

5. Соображение об изучении Платоновского наследия /ВГО Украинская Академия Наук - ГИЛЕЯ- науковий вiсник. Выпуск 111, №8, Киів, 2016, стр.271-275

6. Qədim Yunanıstan və Romada qanun yaradıcılığı. Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. İctimai elmlər seriyası, №2 (83), NDU, 2017, səh.170-177

7. Qədim Yunanıstan və Romada qanunların formalaşdırılması / Naxçıvan Müəllimlər İnstitutunun xəbərləri. Cild 13, №1, 2017, s.69-74

8. Platonun əsərlərində ədalət ideyası və onun əsas prinsipləri / Sivilizasiya. Elmi-nəzəri jurnal. Bakı Avrasiya Universiteti. Cild 6, №1(33), 2017, s. 26-37

9. Platonun fəlsəfəsində qanun ideyası. İSBN 978-9952-514-75-9. Bakı, 2017, 248 səh.

**Магомед Гусейн оглу Акперов**

## Идея закона в философии Платона

## РЕЗЮМЕ

Диссертационная работа посвящена исследованию идеи закона и законности в произведениях Платона. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, показывается степень разработанности проблемы, определяются предмет, цели и задачи диссертационной работы, ее методологическая основа, отмечается научная новизна работы, раскрывается теоретическая и научно-практическая значимость исследования, указывается апробация результатов и структура диссертации.

В первой главе диссертации «Генезис понятия закона и тенденции его развития» рассматриваются формирование и характеристики развития закона в Древнем Востоке; Греции и Риме; различные взгляды и подходы разных народов на божественное происхождение законов; сборник древних законов и их значение в управлении общества.

В следующей главе «Идеи закона и законодательства в творчестве Платона» широко исследуются такие вопросы, как потребность в законах в работах «Закон» и «Государство» философа, а также их гуманистический характер, отношение к теоретическим и практическим аспектам, фактор «управленческого интеллекта», законодательство, основанное на доброжелательности; божественного богатства и безопасности человека; связь между законом и справедливостью; права женщин и мужчин в управлении и т.д.

В третьей главе диссертации «Единство права и нравственности в философии Платона» исследуется отношение философа к таким категориям как мудрость, правда, забота, мужество, удовольствие, удовлетворение; и анализируется представления о терпимости и терпеливости, взаимодействии законов с нравственными императивами.

В заключении диссертации обобщены основные результаты исследования.

**Muhammad Husein Akbarov**

## The idea of law in the philosophy of Plato

## SUMMARY

The thesis is devoted to the study of ideas of law and legality in the works of Plato. The thesis consists of an introduction, three chapters, a conclusion and a list of used literature.

In the introduction, the relevance of the research topic is substantiated, the extent of the problem's development is shown, the subject, goals and objectives of the dissertational work, its methodological basis, the scientific novelty of the work, the theoretical and scientific-practical significance of the study, the approbation of the results and the structure of the thesis are indicated.

In the first chapter of the dissertation "The Genesis of the Concept of the Law and the Trends in its Development" were analyzed the formation and characteristics of the development of the law in the Ancient East, Greece and Rome, the different views and approaches of different peoples to the divine origin of laws, a collection of ancient laws and their significance in the management of society.

In the next chapter, entitled "Ideas of Law and Legislation in Plato's Work," were researched such questions as the need for laws in the works "Law" and the "State" of the philosopher, as well as their humanistic character, attitude to theoretical and practical aspects, managerial intelligence, "legislation based on benevolence, divine wealth and human security, the relationship between law and justice, the rights of women and men in governance, and so on.

The philosopher's attitude to certain categories as wisdom, truth, care, courage, pleasure, satisfaction, and analyzes of opinions on tolerance and patience, the interaction of laws with moral imperatives were studied in the third chapter of the thesis, "The Unity of Law and Morality in Plato's Philosophy".

In the conclusion of the thesis the main results of the study are summarized.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**МАГАМЕД ГУСЕЙН оглу АКПЕРОВ**

# ИДЕЯ ЗАКОНА В ФИЛОСОФИИ ПЛАТОНА

Специальность: 7210.01-История философии

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени доктора философии по философии

**БАКУ- 2018**